**”Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın 2014-cü il üzrə nəzərdə tutulan tədbirlərin icrasına dair məlumatlar**

Azərbaycan Respublikası Prezidentinin “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın və “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında” 2012-ci il 5 sentyabr tarixli, 2421 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində Milli Fəaliyyət Planlarının yerinə yetirilməsinə dair 2012-2015-ci illər üçün Tədbirlər Planı” (bundan sonra – Tədbirlər Planı) hazırlanmış və Komitənin 2012-ci il 17 oktyabr tarixli kollegiya iclasının qərarı ilə təsdiq olunmuşdur. Tədbirlər Planı əsasında hər il olduğu kimi, 2014-cü il dekabr ayının 2-də Dövlət Statistika Komitəsinin Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası tərəfindən 2015-ci il üçün “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində Açıq Hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planlarının həyata keçirilməsi ilə bağlı İş Planı” hazırlanıb təsdiq edilmişdir (əlavə olunur).

2013-cü il noyabrın 26-da təsdiq olunmuş İş Planına əsasən icrası 2014-cü ildə nəzərdə tutulan tədbirlər həyata keçirilmişdir. Belə ki, Komitənin Aparatının əməkdaşlarının iştirakı ilə 2014-cü il oktyabr ayının 28-də “İnformasiya azadlığının təmin edilməsi” mövzusunda treninq keçirilmiş, 2013-cü ilin yekunu üzrə Dövlət Statistika Komitəsinin fəaliyyəti ilə bağlı hesabatın ictimaiyyətə çatdırılması məqsədi ilə hesabat 2014-cü ilin yanvar ayında Komitənin rəsmi internet (www.stat.gov.az) səhifəsində yerləşdirilmiş, habelə 2013-cü il üzrə Komitənin fəaliyyəti barədə illik məlumatlar, “2015-ci il üçün statistik işlər proqramı”, “2015-ci ildə yerli statistika orqanları üçün statistik işlər proqramı”, “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2014-2017-ci illər üçün Strateji Planı”, “İnzibati məlumatlardan uzunmüddətli istifadə üzrə Strategiya”, “Rəsmi statistika sahəsində Azərbaycan Respublikasının əsas normativ hüquqi aktları”, beynəlxalq əməkdaşlıq, normativ hüquqi aktlar, texniki normativ aktlar, statistika sahəsində baş verən yeniliklər, statistika orqanları tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən elektron xidmətlər və s. məlumatlar mütəmadi olaraq Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

2014-cü il fevral ayının 24-də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə “2013-cü ildə ölkənin sosial, iqtisadi inkişafının yekunları” mövzusuna və 2013-cü ildə Komitənin fəaliyyətinə həsr olunmuş mətbuat konfransı keçirilmişdir. Bununla belə, il ərzində keyfiyyətin idarə olunması və informasiya texnologiyaları, əhalinin həyat səviyyəsi və ev təsərrüfatlarının tədqiqatı, milli hesablar və makroiqtisadi göstəricilər, kənd təsərrüfatı və ekologiya, xidmət, sənaye və tikinti, ticarət və turizm, əmək, qiymət, əhali və gender statistikası sahələri üzrə ümumilikdə 115 nəfər istifadəçinin iştirakı ilə 7, həmçinin yerli statistika orqanları tərəfindən 326 istifadəçinin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə 246 görüş keçirilmişdir və bu tədbirlərin 2015-ci il ərzində də davam etdirilməsi nəzərdə tutulur.

Dövlət Statistika Komitəsinin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılması və məlumatların vətəndaşlar arasında təşviqi məqsədilə “Sahibkar statistika ilə bağlı nəyi bilməlidir” adlı məlumat kitabçası hazırlanmış, sahibkarlara paylanması üçün yerli statistika orqanlarına göndərilmiş, sahibkarlıq

subyektləri üçün suallar tərtib edilmiş, eyni zamanda "Rəsmi statistika sahəsində Azərbaycan Respublikasının əsas normativ hüquqi aktları" kitabı yenidən hazırlanıb və nəşr edilərək yerli statistika orqanlarına və Komitənin Aparatının şöbələrinə paylanmış, hər iki material Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Eyni zamanda "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər edilməsi haqqında" 20 iyun 2014-cü il tarixli, 987-IVQD nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən, statistika müşahidələrinin keçirilməsi üçün zəruri olan məlumatların təqdim edilməməsinə və ya vaxtında təqdim edilməməsinə, yaxud hesabatların təhrif edilməsinə görə 300 manatdan 700 manatadək cərimə sanksiyasının tətbiq olunması haqqında məlumat geniş ictimaiyyətə çatdırılmaq üçün Komitənin rəsmi internet səhifəsində elan verilmişdir. Bununla yanaşı, Komitənin internet səhifəsinin dövlət orqanlarının internet səhifəsinin vahid nümunəvi formasına uyğunlaşdırılması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 4 sentyabr tarixli 189 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair tələblər"ə uyğun olaraq həyata keçirilmişdir. "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"yə Dövlətstatkomda "İctimai Şura" yaradılır" bəndinin əlavə edilməsi haqqında təklif hazırlanmış və müvafiq orqanlarla məsləhətləşmələr keçirilmişdir. Lakin müvafiq Sərəncamın imzalanacağı gözlənildiyindən, İctimai Şuranın yaradılması prosesi müvəqqəti olaraq dayandırılmışdır. Eyni zamanda, "2015-ci il üçün statistik işlər proqramı"nın və "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"nda və "Dövlət Statistika Komitəsinin iştirak etdiyi digər dövlət proqramlarında icrası 2015-ci ildə nəzərdə tutulan tədbirlər planı"nın layihələri hazırlanaraq sahibkar və vətəndaşların müzakirəsinə verilməsi üçün Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

İş Planına əsasən Komitənin şöbələrinin iştirakı ilə "Açıq qapı" gününün keçirilməsi qrafikinə uyğun olaraq 2014-cü il oktyabr ayının 23-24-də Dövlət Statistika Komitəsində ictimaiyyət, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri üçün "Açıq qapı" günü keçirilmişdir. Statistik məlumatlardan səmərəli istifadəni, lazım olan göstəricilərin statistik nəşrlərdə və internet səhifəsində axtarışının asanlaşdırması, eləcə də statistik göstəricilərin hesablama metodologiyaları haqqında izahatların verilməsi, elektron xidmətlər barədə ictimai təqdimatların keçirilməsini təmin etmək məqsədilə Komitədə statistik məlumatların istifadəçiləri və eləcə də Komitənin tabeliyində olan və ya onun strukturuna aid olan qurumların əməkdaşlarının iştirakı ilə seminar və kurslar təşkil olunmuşdur.

2014-cü il üzrə İş Planında nəzərdə tutulmuş statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə hüquqi və fiziki şəxslərə tətbiq edilən inzibati cərimələrin elektron ödənilməsi qaydaları hazırlanaraq Dövlət Statistika Komitəsinin 03.12.2012-ci il tarixli, 97/07 nömrəli qərarı ilə təsdiq olunaraq Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

İctimaiyyətin məlumatlandırılması işinin daha da təkmilləşdirilməsi məqsədilə 2014-cü ildə Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsinin (**www.stat.gov.az**) mütəmadi olaraq yenilənməsi şərti ilə statistik məlumatlara və nəşrlərə dair bölmələr daha da təkmilləşdirilmiş, yeni məlumatlar daxil edilərək istifadəçilərin ixtiyarına verilmiş,

ictimaiyyətlə əlaqələrin gücləndirilməsi məqsədilə yaradılmış "qaynar telefon xətti" fəaliyyətini davam etdirmişdir. Dövlət Statistika Komitəsinin Aparatına 2014-cü ilin birinci yarısında vətəndaşlardan daxil olmuş ərizə, şikayət və müraciətlərə baxılması, görülmüş işlər və tədbirlər barədə hesabat 2014-cü il iyul ayının 16-da kollegiya iclasında müzakirə olunaraq təsdiq edilmiş və bu məlumatlar Komitənin internet səhifəsində yerləşdirilmişdir. 2014-cü ilin ikinci yarısının yekunlarına dair hesabatın müzakirəsi 2015-ci ilin birinci rübünə planlaşdırılmışdır. Həmçinin Dövlət Statistika Komitəsinin rəhbər işçiləri tərəfindən vətəndaşların qəbulu günlərinin və saatlarının qrafiki rəsmi internet səhifəsində yerləşdirilmiş və Komitənin il ərzində fəaliyyət göstərmiş elektron ünvanına (**sc@azstat.org**) daxil olmuş 700-ə yaxın müraciət müvafiq qaydada cavablandırılmışdır. Vətəndaşların korrupsiya ilə bağlı müraciət, ərizə və şikayətlərinə baxılması və cavablandırılması işinin daha da təkmilləşdirilməsi məqsədilə vahid sənəd hazırlanaraq Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

2013-cü ilin İş Planına əsasən Dövlət Statistika Komitəsinin tabeliyində olan Tədris Mərkəzi tərəfindən "Korrupsiyaya Qarşı Mübarizə üzrə" təlim modulu və 2014-2015-ci illər üzrə Tədris proqramı hazırlanmışdır. Dövlət qulluqçularının fəaliyyətlərinin qiymətləndirilməsi məqsədi ilə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30-1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın 10 fevral 2014-cü il tarixli 021-Q nömrəli Qərarı ilə "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları" təsdiq edilmişdir. Bununla əlaqədar olaraq Dövlət Statistika Komitəsinin Aparatında qulluq keçən dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirməsinə dair 07.07.2014-cü il tarixli 95/t nömrəli əmrinə əsasən Komitədə çalışan dövlət qulluqçularının xidməti fəaliyyətlərinin qiymətləndirilməsi 2014-cü il iyul ayının 1-dən dekabr ayının 31-dək olan dövrü əhatə edir. Qiymətləndirmə ilə bağlı yekun hesabat 2015-ci il mart ayının 1-dək Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim ediləcək. Dövlət qulluqçularının etik davranış qaydalarının və prinsiplərinin öyrədilməsi məqsədilə Dövlət Statistika Komitəsi Aparatının və Bakı Şəhər Statistika İdarəsinin əməkdaşları üçün Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın nümayəndəsinin iştirakı ilə 2014-cü il aprel ayının 29-da isə "Maraqlar toqquşmasının qarşısının alınması" və "Etik davranış qaydalarının və prinsiplərinin, onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmlərin öyrənilməsi" mövzusunda treninq keçirilmişdir. Komitə tərəfindən 2013-cü ildə Dövlət Statistika Komitəsində etik davranış məsələləri üzrə hesabat 15 yanvar 2014-cü il tarixli, 15/08 nömrəli məktubla Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilmiş (2014-cü il üzrə hesabat isə 2015-ci il yanvar ayının 15-dək təqdim edilir), etik davranış qaydalarının pozulması hallarına görə tətbiq edilmiş intizam tənbehi tədbirləri və aparılmış maarifləndirmə işləri ilə bağlı illik hesabatlarla yanaşı Komitənin rəsmi internet səhifəsində "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin işçilərinin qeyri-etik davranışları barədə elektron şikayət" bölməsi yaradılaraq istifadəçilərin ixtiyarına verilmişdir. Komitədə olan vakant yerlər barədə məlumatlar mütəmadi olaraq rəsmi internet səhifəsində yerləşdirilmiş, vakant vəzifələr və müsabiqə və müsahibələrdən müvəffəqiyyətlə keçərək dövlət qulluğuna qəbul edilmiş namizədlər haqqında məlumatlar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilmişdir. 2014-cü ildə 42 nəfər müsabiqə yolu ilə, 5 nəfər ümumi

müsahibə yolu ilə dövlət qulluğuna qəbul edilmiş, 10 nəfər daxili müsahibə yolu ilə yüksək vəzifələrə təyin olunmuşdur.

2014-cü ilin İş Planında əks olunmuş "Sahibkarların statistika orqanları ilə münasibətlərində qarşılaşdıqları problemlərin öyrənilməsi və onların həlli üçün tədbirlərin müəyyən edilməsi və bu işlərin elektron qaydada həyata keçirilməsinin təşkili" tədbirinin icrası ilə bağlı il ərzində internet səhifəsində sahibkarlarla sorğunun keçirilməsi işi davam etdirilmişdir (nəticələr 2015-ci ilin yanvar ayında yekunlaşdırılacaqdır). Həmçinin Dövlət registri və təsnifatlarla bağlı, statistik kodların müəyyən edilməsi və statistik məlumatların alınması ilə bağlı, hesabatların gecikməsi zamanı ödəniləcək cərimənin miqdarı və hansı hesabatların təqdim edilməsi və digər məsələlərlə bağlı sahibkarların müraciətləri, eləcə də sahibkarlar tərəfindən Dövlət Statistika Komitəsinin "qaynar xətt"inə daxil olmuş 248 sorğu cavablandırılmış və onlara lazımi kömək göstərilmişdir. Eyni zamanda, sahibkarlara kömək məqsədilə fəaliyyət növləri üzrə təqdim olunacaq hesabatların siyahısı hazırlanaraq Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Bundan başqa inzibati məsuliyyətə cəlb edilmiş şəxslərin müəyyən olunmuş cəriməni internet vasitəsilə ödəmələri ilə bağlı 14.07.2014-cü il tarixli, 01/2-41 nömrəli və cərimələrin artırılması ilə bağlı 16.07.2014-cü il tarixli, 01/2-42 nömrəli məktublar yazılaraq yerli statistika orqanlarına göndərilmişdir. Sahibkarlardan qəbul edilən rəsmi statistika hesabatlarının elektron formada qəbulunun sürətləndirilməsi məqsədi ilə bütün statistik hesabat formalarının online təqdim edilməsinə imkan verən proqram vasitələri hazırlanaraq komitənin veb səhifəsində yerləşdirilmişdir. Rayon (şəhər) statistika idarələri (şöbələri) tərəfindən hesabatların online təqdimatı təbliğ olunur və lazım gəldikdə sahibkarlara hesabatların təqdimat sistemi əyani şəkildə nümayiş etdirilir.

Komitədə elektron dövlət satınalmalarının tətbiq edilməsi məqsədi ilə elektron satınalmaların tətbiqinin ümumi prinsiplərinin müəyyənləşdirilməsi, satınalmaların planlaşdırılması və satınalma planlarının rəsmi internet səhifəsində dərc olunması, tender prosedurunun keçirilməsi haqqında elanların, kotirovka sorğusunun keçirilməsi haqqında bildirişlərin Dövlət Statistika Komitəsi və Satınalmalar üzrə Dövlət Agentliyinin rəsmi internet səhifəsində yerləşdirilməsi, müsabiqələrin nəticələrinin elan olunması təmin edilmişdir. Fəaliyyət planında nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı 2014-cü il noyabr ayının 28-də vətəndaş institutlarının cəlb edilməsi ilə əlaqədar Komitədə Təhsil Nazirliyi ilə birgə 50 nəfər iştirakçıdan ibarət "Statistika və cəmiyyət" adlı elmi praktiki konfrans keçirilmişdir.

2013-cü ildə Dövlət Statistika Komitəsi tərəfindən "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində Açıq Hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planlarının həyata keçirilməsi ilə bağlı İş Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrasına xüsusi diqqət yetirilməsi onun vaxtında yerinə yetirilməsini təmin etmiş və bu sahədə görülmüş işlər barədə illik hesabat 08.01.2014-cü il tarixli R/01 nömrəli məktubla Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına və eyni tarixlə R/02 nömrəli məktubla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.